## *TƏRBİYƏ MƏSƏLƏLƏRİ*

UOT 37.01

***Təhminə Mərdan qızı Rüstəmova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*

# UŞAQLARIN TƏRBİYƏSİNDƏ TƏSVİRİ SƏNƏTİN ROLU VƏ ƏHƏMİYYƏTİ

***Тахмина Мардан гызы Рустамова***
*преподаватель Азербайджанского Государственного Педагогического Университета*

# РОЛЬ И ЗНАЧЕНИЕ ОБРАЗЦОВ ИЗОБРАЗИТЕЛЬНОГО ИСКУССТВА В ВОСПИТАНИИ ДЕТЕЙ

***Tahmina Mardan Rustamova***
*teacher of the Azerbaijan State Pedagogical University*

# THE ROLE AND IMPORTANCE OF FINE ART SAMPLES IN CHILD EDUCATION

**Xülasə:** Məqalədə uşaqların tərbiyəsində təsviri sənətin rolu və əhəmiyyəti araşdırılır. Klassik pedaqoqların təsviri incəsənət haqqında fikirlərinə istinad edərək, məktəblilərin tərbiyəsində oynadığı rola aydınlıq gətirilir. Müasir dövrdə məktəblilərin zövqünün korlandığı, bayağı incəsənətə meyillərinin gücləndiyi bir zamanda dəyərli təsviri incəsənət əsərləri vasitəsilə məktəblilərin tərbiyə olunmasının əhəmiyyəti geniş şəkildə tədqiq olunur. Fərqliləşdirmə və fərdiləşdirmə prinsipi əsasında məktəblilərin tərbiyəsi önə çəkilir.

***Açar sözlər:*** *pedaqogika, incəsənət, rəssamlıq, təlim, tərbiyə, metodika*

**Резюме:** На духовное становление человека, на формирование его культуры существенно влияют занятия искусством, которые могут служить механизмом развития культурного потенциала общества, его художественно-творческой элиты. В соответствии с возникщими проблемами модернизации образования, в том числе и художественного, возникла необходимость в новых подходах к преподаванию в общеобразовательных учреждениях. Реализация принципов и задач современной школы предполагает не только изменение взглядов на содержание, формы и методы учебной деятельности школьников, но и радикальное преобразование деятельности учителя.

***Ключевые слова:*** *педагогика, искусство, живопись, обучение, воспитание, методика*

**Summary:** On the spiritual formation of man, the formation of his culture is significantly influenced by art classes that can serve as a mechanism for developing the cultural potential of society, its artistic and creative elite. In accordance with the emerging problems of modernization of education, including art, there was a need for new approaches to teaching in general education institutions. Realization of the principles and tasks of the modern school implies not only a change in views on the content, forms and methods of schoolchildren's educational activity, but also a radical transformation of the activity of the teacher.

***Key words****: methodology, pedagogy, art, art, education, culture*

İdraki proseslər: qavrayış, diqqət, təxəyyül, yaddaş, fikir, söz – hər hansı bir insan fəaliyyətinin mühüm komponenti kimi çıxış edirlər. Öz mənəvi ehtiyaclarını ödəmək, ünsiyyət etmək, oynamaq, öyrənmək və işləmək üçün insan ətraf aləmi dərk etməli, fəaliyyətin bu və ya digər komponentlərinə diqqət etməli, özünə nəyin lazım olduğunu bilməli, qərarlar qəbul etməli, mülahizələr irəli sürməlidir. Buna görə də idraki proseslər olmadan insan fəaliyyəti mümkünsüzdür. İdraki proseslər fəaliyyətin əsas və ayrılmaz daxili məqamları rolunda çıxış edir. Özfəaliyyət zamanı idraki proseslər inkişaf edərək fərdi iş üsullarının meydana çıxmasına imkan yaradır.[3]

Uşaqlarla pedaqoji işə başlarkən hər şey-

dən əvvəl təbiətin uşaq zəkasına hansı siqnalları ötürdüyünü və ətraf mühitin təsiri altında nə əldə edildiyini öyrənmək lazımdır. İnsan resurslarının inkişafı və onların imkanlara çevrilməsi təlim və tərbiyənin əsas vəzifələrindən biridir. Belə ki, biliksiz və inkişafsız təlim-tərbiyə prosesini icra etmək mümkün deyil. Fərdlərin inkişaf səviyyəsindən asılı olaraq tədris prosesində mühüm irəliləyişlərin əldə edilməsi üçün xüsusi imkanlar yaranır. İdrak prosesinin psixoloji quruluşu və onun formalaşması qaydalarını bilmək tədris və tərbiyə metodunun seçilməsi üçün mühümdür.

Böyüklərin yansıması olaraq uşaqların təsviri sənət fəaliyyəti özündə bütöv bir nəslin məişət-tarixi təcrübəsini birləşdirir. Böyüklərin köməyi olmadan uşaq bu təcrübəni özündə formalaşdıra bilməz. Məhz böyüklər – təcrübənin daşıyıcıları onu gələcək nəslin nümayəndələrinə ötürə bilər. Ötürülmə funksiyalı təcrübəni aşılamaqla uşaqların fərd kimi inkişafına nail olmaq mümkündür. Rəsm, modelləşmə, applikasiya prosesində uşaq müxtəlif hissləri təcrübədən keçirir: özü çəkdiyi gözəl rəsmə sevinir, yaxud nəyisə yaxşı alınmayanda kədərlənir. Amma ən önəmlisi: rəsm çəkməklə uşaq müxtəlif anlayışları qavrayır; onun ətraf aləm haqdakı fikirləri dərinləşir və genişlənir; iş fəaliyyəti ərzində o ünsürlərin keyfiyyəti ilə tanış olur, detallarını və xarakterik xüsusiyyətlərini yadında saxlayır, rəsm bacarıq və qabiliyyətlərinə yiyələnir, onları şüurlu şəkildə istifadə etməyi öyrənir.

Aristotel deyirdi ki, "Rəsmlə məşğuliyyət uşağın hərtərəfli inkişafına kömək edir". Bu haqda həm də sonrakı dövrün qabaqcıl pedaqoqları – Y.A. Komenskiy, İ.Q. Pestalossi, F. Frebel və başqaları yazmışlar.[5] Onların tədqiqatları sübut edir ki, rəsm və təsviri fəaliyyətinin digər növlərilə məşğuliyyət uşaqların öz aralarında və böyüklərlə müstəqil ünsiyyət qurması üçün zəmin yaradır, uşaqları kədərli, qəmli hadisələrdən uzaqlaşdıraraq terapevtik funksiya yerinə yetirir, sinir gərginliyini, qorxuları alır, sevincli, yüksək əhval-ruhiyyə gətirir, emosional vəziyyəti tənzimləməyə imkan verir. Bunun üçün uşaqların incəsənət növlərilə və rəsmlə fəaliyyəti önəmlidir. Belə şəraitdə uşaq böyüklərin hər hansı təzyiq və müdaxiləsi olmadan, müstəqil şəkildə özünü göstərə bilir.[1]

Alimlər həmçinin əqli çatışmazlığı olan şagirdlərin məhz rəsm fəaliyyətilə məşğul olmasını digər fəaliyyət növlərindən üstün sayır və uşaqlara daha maraqlı olduğu üçün sırf bu sahəyə üstünlük verirlər. Rəsmin aydınlığı, konkretliyi nəticəsində uşaqlar müxtəlif oyunlara da maraqla yaxınlaşırlar. L.S. Vıqotskinin, S.L. Rubenşteynin, A.N. Leontyevin və digər görkəmli psixoloqların fikirlərilə razılaşaraq, psixika insanlarda iş gedişatı içərisində aktiv dəyişir. Rəsm fəaliyyət sahəsi kimi özündə psixi proseslərin komponentlərini birləşdirir. Bununla əlaqədar olaraq onu şəxsiyyətin formalaşmasında vacib amil saymaq olar.

Elmi-texniki tərəqqiyə təkan vermiş müasir cəmiyyətdə XX əsrə; yəni üçüncü minilliyə keçid zamanı müasir sivilizasiyanın təsirilə daha ağrılı bir sıra problemlər də yarandı. Yeni dövrün gətirdiyi problemlərin həlli məqsədilə aparılan elmi araşdırmalar nəticəsində əsas vəzifənin pedaqoji amillər üzərinə düşdüyü məlum oldu.

Peşəkarlar şagirdlərin fərdi inkişaf üçün ümumi mədəni səviyyəyə diqqətinin gündən-günə azalması məsələsinin əhəmiyyətli problem olduğunu qeyd edir. Bu gün dərsdə incəsənət fəaliyyətilə bağlı tam formalaşmış fikir səsləndirən uşaqlar çox azdır. Rəy bildirənlərin isə fikirləri heç də hər zaman kommunikativ-şərhləyici funksiya daşımır. Təhsil alanların böyük qismi məktəbi bitirəndə dövrün aktual mədəni təcrübəsinə yiyələnmiş sayılmır, yüksək incəsənətlə rəftarı bacarmır, incəsənət terminologiyasını bilmir. Bu emosional «karlığa», gözəlliyin qəbul edilməməsinə gətirib çıxarır; anlayışların qavrayışını və təfəkkürün inkişafını, təxəyyülü və şəxsiyyətin inkişafını çətinləşdirir. Məktəblilərin estetik tərbiyəsi – müasir məktəbin ən həssas problemlərindəndir. Bir qisim orta məktəb məzunları əsas mədəni fəaliyyətləri qavramağı bacarmırlar. Məsələn, onlar sənətşünaslıq ədəbiyyatı ilə, klassik musiqi, teatr, təsviri sənətlə maraqlanmırlar. Hər bir şagirdin təsviri sənətlə bağlantı qurması, incəsənət anlayışlarının qavrayış bacarığını aşılamaq kimi məsələlər uşaqların ümumi mədəni səviyyəsini realizə etməyə kömək olacağı üçün bunların reallaşdırılması məktəbin və bilavasitə pedaqoqların qarşısında duran ən önəmli vəzifədir.[4]

Məhz məktəbdə şagirdlərin inkişafı üçün əsas rol oynayan çətin tapşırığın həll edilməsi –

şəxsiyyət formalaşmasında özünü ifadə etmə, daxili azadlıq və harmoniyanın təmini – kimi əsas vəzifə həyata keçirilir. Bunun gerçəkləşməsi isə yalnızca məktəb təlimi və incəsənətlə bağlı açıq dialoqların qurulması vasitəsilə mümkündür. Öz funksiyaları (evristik, kompensator, kommunikativ, aksioloji, estetik və b.) hesabına təsviri sənət təfəkkürü və yaradıcı cəhətləri insanda inkişaf etdirilir, təsəvvürü aktivləşdirilir. Rəssamlığa müraciət təlim prosesinin və məktəblilərin tərbiyəsində vacib elementlərindən biri sayılır. Çünki məktəb pedaqogikasının ən önəmli problemlərindən birinin – şəxsiyyətin inkişafında harmoniyanın qorunmasını təmin edir.

XX əsrdə humanitar elmlərdə insan və yaradıcılıq münasibətləri ən aktual problemlərdən biri sayılırdı. Dialoq ideyası da təsviri sənətin, o cümlədən, mədəniyyətin metodik əsası kimi bir çox tədqiqatçıların (M. Kaqan, Y. Lotman, D. Lixaçev, S. Averinsev, A.Y. Zis, V.M. Rozin və başqaları) əsas araşdırma mövzularından olmuşdur. Müasir tədqiqatçılar bu problemi günümüzə uyğun olaraq rəssamlığı yaradıcılıq fəaliyyətində görən mədəniyyət çərçivəsində və şəxsiyyət problemi fonunda həll edir. Mədəniyyətin tarix kontekstində daimi inkişaf dialoqunu qeyd etməklə, tədqiqatçılar (Y. Lotman, M. Baxtin, D. Lixaçev və başqaları.) incəsənət ədəbiyyatının bu dialoqdakı xüsusi rolunu qeyd ediblər.[3]

Mədəniyyət və incəsənət dialoqu problemini tədqiqatçılar interpretasiya problemi ilə əlaqələndirirlər. Belə ki interpretasiya hər zaman dialoqdur. İnsanın mədəniyyət və incəsənət fəaliyyətləri mexanizmi pedaqogikada, psixologiyada, etikada, sənətşünaslıqda müxtəlif baxış bucaqlarından izlənir. Bu kontekstdə ən vacib problemlərdən biri – incəsənətin qavrayışı problemidir. L. Vıqotski incəsənətin insana emosional təsiri haqda hazırladığı nəzəriyyəsində insanların «sənət əsərləri ilə ünsiyyəti» zamanı formalaşmasını izah edir. Həmin nəzəriyyəyə əsaslanaraq tədqiqatçı uşaqların yaradıcı fəaliyyətilə estetik tərbiyəsini əlaqələndirir. Vıqotskinin insanın inkişafında incəsənətin rolunun vacibliyi haqda ideyası psixoloji, pedaqoji və sənətşünaslıq üzrə tədqiqatlarda mühüm məlumat mənbəyi hesab olunur. Tədqiqatçılar qeyd edir ki, bədii yaradıcılıq və incəsənət qavrayışı bənzər anlayışlardır: oxucu (dinləyici, izləyici) sənət əsərini mənimsəyir, özününkiləşdirir, diqqətini, təcrübələrini onun anlaşılması üzərində cəmləşdirir. Bu səbəbdən, incəsənətin qavrayış səviyyəsi insanın ümumi mədəni imkanlarından asılıdır. Bununla əlaqədar məktəblilərin qavrayışının formalaşmasında estetik tərbiyə böyük rol oynayır.

Şagirdlərin müasir estetik inkişaf tendensiyaları (V. Bibler, D. Kabalevskiy, V. Maransman, B. Nemenskiy) sübut edir ki, humanitar-estetik dairədə yer alan fənlərin tədrisi daha nəticəli və dinamikdir (əgər təhsil prosesi bu fənlərin bir-birinə qarşılıqlı inteqrasiyası sistemində həyata keçirsə). «İnteqrasiya» anlayışı hazırkı dövrdə təhsildə yetərincə konseptual və «dolu»dur : onu aktiv şəkildə pedaqoji, didaktik və metodiki kontekstdə gözdən keçirirlər. Estetik tədris kontekstində aktiv şəkildə humanitar təlimin daxili dialoqu kimi kənardan baxılan fənlərarası inteqrasiya yolları inkişaf edir. İnteqrasiyanın effektivliyi problemini həll edərək, tədqiqatçılar hər ayrı hadisəyə inteqrasiyanı, onun metodik əsasını və effektlərini nəzərə alaraq inteqrativ şəkildə yaxınlaşmağı təklif edirlər. Bizim baxışımıza əsasən, humanitar qaydaların inteqrasiyasına əsaslanaraq, şagirdlərin yaradıcı və bədii fəaliyyət dialoqunu birləşdirərək, estetik tərbiyənin səviyyəsini yüksəltmə problemini həll etmək olar.

Tədqiqatçı İ. Kon qeyd edir ki, yeniyetməlik dövründə məktəblinin ümumi mədəni səviyyəsinin formalaşması onun şəxsiyyət kimi formalaşması üçün son dərəcə əhəmiyyətlidir. Məktəb təlimi məhz bu mərhələdə aktiv şəkildə yuxarı siniflərin yaradıcı inkişafına təsir edə bilər.[8] Bir çox tədqiqatçıların fikrinə əsasən (M. Kaqan, V. Maransman, L. Predteçenski və başqaları.), yuxarı siniflərin estetik tərbiyəsində xüsusi üsul və pedaqoqun peşəkarlığı ilə tədris edilməli olan «Dünya ədəbi mədəniyyəti» fənni vacib rol oynayır.[2]

L. Predteçenskaya xüsusilə rəssamlığın istər sinifdaxili istərsə də sinifdənkənar məşğələlərdə digər fənlərlə qarşılıqlı əlaqə zamanı daha faydalı və effektiv təsirinin olacağına diqqət çəkir. Predteçenskaya tərəfindən hazırlanmış metodiki istiqamət və D. Kabalevski ilə B. Nemenskinin orta ümumtəhsil məktəbində musiqi və təsviri sənət dərslərinin tədrisilə bağlı prinsipləri əks etdirdiyi proqramların təyin etdiyi kurs əsasında keçirilən təlim məktəblilərin ni-

zamlı inkişafını tamamlamağa kömək edir.

Uşaqların inkişaf edən şəxsiyyətinə göstərdiyi pedaqoji və fərdi təsirinə əsaslanaraq alimlər incəsənətin tədrisdəki məqsəd və vəzifələrini belə müəyyən edir:

- şagirdin incəsənətlə qarşılıqlı əlaqə qurması əsasında onu əhatə edən dünyaya ayrılmaz və təmənnasız münasibət, müxtəlif həyat ünsürləri və hadisələrinin (insan, təbiət, mədəniyyət əsərləri) qiymətləndirilməsi, gözəllik hissini aşılamaq;
- öz xalqını, mədəniyyətini, incəsənətini sevən, başqa xalqların adət- ənənəsinə hörmət edən, mənəvi cəhətdən zəngin və estetik cəhətdən inkişaf etmiş insan tərbiyə etmək;
- bədii yaradıcılıq, müxtəlif incəsənət növlərində ifadəli bədii obrazın fərdə imkan verdiyi səviyyədə yaratmaq qabiliyyətlərini inkişaf etdirmək;
- şagirdlərdə incəsənətin konkret növlərində biliklər və praktik fəaliyyət bacarıqları formalaşdırmaq, müxtəlif incəsənət növlərinin dilinin spesifikasına sahib olmağa kömək etmək;
- şagirdləri bədii əsərlərin tamaşaçısı, dinləyicisi, oxucusu kimi tərbiyə etmək, müəllifin bədii fikrini, müxtəlif üslub və istiqamətlərin xüsusiyyətləri sərbəst dərk etmək qabiliyyətini inkişaf etdirmək;
- bədii zövq, həqiqi dəyərləri fərqləndirmək bacarığını aşılamaq;
- şagirdlərdə bədii yaradıcılıqda vacib olan, həmçinin gələcəkdə peşələrində yaradıcı və ixtisaslaşdırılmış mütəxəssis olmağa kömək edəcək təxəyyül, bədii düşüncə, məkan təsəvvürləri, sensor qabiliyyətlər, bacarıqları inkişaf etdirmək;
- şagirdlərin əsəb-psixoloji yüklənmələrini aradan qaldırmaq, müsbət emosional-energetika tonusunu bərpa etmək.

İncəsənətə daxil olan sahələrin maariflənndirici yönümdə qarşılıqlı təsirinin müxtəlif tipləri haqqında danışmaq olar.

Komplekslik hər incəsənət növünün ümumi problemlərini və onların fərdi spesifikasını üzvi surətdə uyğunlaşdıran biliklərin universal tematik dairəsinin formalaşmasında meydana gəlir. Komplekslik əsas anlayışların mənimsənməsi zamanı mövzuların məntiqi ardıcıllığında da ifadə oluna bilər. İncəsənətin bütün növlərinin inteqrasiyası ümumi metodoloji yanaşma, hədəflərin, məsələlərin, prinsiplərin birliyi, hər bir incəsənət növünün spesifikası əsasında reallaşdırma yollarının müxtəlifliyini irəli sürür. Son zamanlar incəsənət vasitəsilə dünyanın qavranılmasının vahid əsasında ümumi bazanın və əlavə təhsilin inteqrasiyası ideyası səslənir.[7]

Maarifləndirici sahə olan təsviri sənət “ünsürlərinin” tədrisinin ümumi prinsipləri:

- tədris şagirdlərin müxtəlif yaş qrupuna uyğun olaraq (ibtidai məktəblilər, azyaşlılar və yeniyetmələr) inkişaf xüsusiyyətlərinə və əlverişli ilkin şərtlərə söykənir;
- tədris fərdi yaradıcılıqda və incəsənətin qavranılmasında hər bir uşağın şəxsiyyətinin açılmasının imkanlarını təmin edir;
- tədris təlimin və yaradıcılığın orqanik birliyi kimi təşkil edilir; tədris məsələləri yaradıcılıqdan ayrılmır və ardıcıllıqda ondan əvvəl gəlmir; bədii obrazın uşaq tərəfindən qavranılması və bilavasitə hazırlanması hədəfdir;
- Y.A. Komenskinin didaktikanın “qızıl qaydaları” adlandırdığı əyanilik prinsipi incəsənət əsərlərinin müxtəlif janr və növlərinin, həmçinin təbiətin və insanın həyatından parlaq nümunələrinin nümayişi vasitəsi ilə reallaşır;
- uşaqlarla müəllimin ünsiyyəti əsasən dialoq xarakteri daşıyır; işlərin keyfiyyətli qiymətləndirməsi kəmiyyət baxımından üstün olur, ibtidai məktəbdə isə onu əvəz edir;
- fasiləsizlik prinsipi məktəbdə təhsilin bütün illəri boyunca incəsənət fənlərinin öyrənilməsini təklif edir;
- ardıcıllıq prinsipi rus bədii məktəbinin ənənələrinin və müasir dünyanın reallıqlarının, məktəb yaşına çatmamış uşaqların, kiçik məktəblilərin və növbəti, daha böyük yaş qruplarının yaradıcılığında ardıcıllığın zəruri hesabını təklif edir;
- incəsənət ünsürlərinin öz aralarında və başqa tədris fənləriylə inteqrasiya prinsipi, bir tərəfdən, gerçəkliyin estetik mənimsənilməsinin bədii forması kimi incəsənət ünsürlərinin birliyini, əlaqəsini göstərmək, digər tərəfdən isə ümumtəhsil məktəbdə incəsənət dərslərinin praktik istiqamətini, həyatla onların qırılmaz əlaqəsini hiss etmək;
- dəyişkənlik prinsipi tədris fənninin vahid məzmununun reallaşdırmasının imkanını müxtəlif elmi - metodik yanaşmalar və bizim çoxmillətli ölkəmizin mədəni ənənələri əsasında nəzərdə tutur;

- fərqliləşdirmə və fərdiləşdirmə prinsipi uşaqlara təhsil ərzində onların fərdi xüsusiyyətlərinə, qabiliyyətlərinə və maraqlarına, bədii və intellektual inkişafın səviyyəsinə uyğun olaraq təsviri - incəsənət və ya musiqi təhsilini almaq imkanını verir; ümumtəhsil məktəbinin yuxarı siniflərində müxtəlif profil öyrənilməsi seçiminin imkanı nəzərdə tutulur.

**Problemin aktuallığı.** Məktəblilərin təsviri incəsənət vasitəsilə tərbiyə olunması aktuallığı ilə qarşıda durur.

**Problemin yeniliyi.** Məktəblilərin təsviri incəsənət vasitəsilə tərbiyə olunmasının əsas məsələləri diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti.** Uşaqların məktəbdə və ailədə təsviri incəsənət vasitəsilə tərbiyə edilməsinə kömək göstərəcəkdir.

**Ədəbiyyat:**

1. Komenski Y.A. Seçilmiş pedaqoji məqalələri. Bakı, 1989.
2. Andreyeva O.İ. Dünya ədəbi mədəniyyəti. Bakı, 2008.
3. Borev Y.B. Estetika. Bakı, 1988.
4. Uspenski Q.İ. Klassiklər və müasirlər. Bakı, 1981.
5. Komenski Y.A. Pedaqoji irsi. Bakı, 1988.
6. Rubenşteyn S.L. Ümumi psixologiyanın problemləri. Bakı, 2007.
7. Kaqan S.L. Sənətşünaslıq və ədəbi tənqid: Seçilmiş məqalələr. Bakı, 2000.
8. Kon İ.S. Erkən gənclik psixologiyası. Bakı, 1980

E-mail: tahmina rustamova.tr@list.ru
**Rəyçilər:** *ped.ü.elm.dok.* P.B. Əliyev,
*ped. ü. fəls. dok., dos.* M.S. Kazımov
**Redaksiyaya daxil olub: 24.05.2018**